# AZƏRBAYCAN BIBLIOQRAFIYA ELMİNİN ŞAH DAMARI

Abuzər Xələfov 1931-ci ildə Göyçə mahalının Cil kəndində dünyaya gəlib. 1950-ci ildə Göyçənin Toğluca kəndində orta məktəbi bitirdikdən sonra indiki Bakı Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaşünaslıq və biblioqrafiya şöbəsinə daxil olmuşdur. A.Xələfov ali təhsilini başa vuran il BDU-da müəllim saxlanmışdır. Son yarım əsrdir ki, professor Abuzər Xələfov həmin universitetin müqəddəs divarları arasında yüksək ixtisaslı gənc kadrlar hazırlaya-hazırlaya özü də inkişaf etmiş və respublikada kitabxanaşünaslıq və biblioqrafiya sahəsində görkəmli alim-pedaqoq səviyyəsinə çatmışdır.

Yaşadığımız dövrün zaman və məkan mərhələlərində formalaşan hər bir həyat qatının özəyini həmin illərdə yetişməkdə olan insanların ən yaxşıları təşkil edir. Bu yaxşılar tələbəlik illərində özlərini daha qabarıq büruzə verirlər.

Təhsil aldığı ali məktəbdə özünü hərtərəfli göstərən perspektivli tələbələrə dərs deyən müəllim heyəti onlardan seçərək ali məktəblərdə saxlayır, qayğı göstərir və yetişdirərək müəyyən mərhələyə qaldırırlar. Mən deyərdim ki, 1950-1970-ci illərdə kadr seçimi qüsursuz idi.

Müəllim gözü ədalət tərəzisi olduğu kimi, tələbə gözü də tərəzidir. Bu səbəbdən də seçilmiş gənc kadr ürəyinə yatan elmi, elmi-pedaqoji rəhbərə sığınaraq inkişaf edir. Şübhəsiz ki, yetişməkdə olan kadr işləməyə başladığı mühitin ab-havasını götürür, müəllimlərinə oxşamağa çalışır və son həddə həmin ənənəyə sadiq qalır.

1945-1947-ci illərdə ali məktəblərə qəbul olunmuş tələbələrin sayılıb-seçilənləri oxuduqları ali məktəbin həyatında mühüm rol oynamışlar.

V.İ.Lenin adına APİ-nin (1947-1951) rəhbərliyi bu ali tədris müəssisəsinin tələbə təşkilatlarını gələcəyinə inandıqları əlaçı tələbələrə — Şıxəli Qurbanova, Sərxan Verdiyevə, bu sətirlərin müəllifinə və b. etibar edir və ümumi təşkilati işin yaxşılaşmasında onlardan faydalanırdılar.

1950-ci ildə mən Azərbaycan Dövlət Universitetinin tələbələri — sonralar elmdə akademik səviyyəsinə yüksəlmiş Firudin Köçərli, Aslan Aslanov, EA-nın müxbir üzvü Ziyəddin Göyüşovla tanış oldum. O dövrdə həmin tələbələr ADU-da komsomol və tələbə təşkilatına rəhbərlik edirdilər. Həmin illərdə universitetin, institut rəhbərlərinin obyektivliyi, məsuliyyəti, gənclərə etibarı və onların parlaq gələcəyinə ümidi çox böyük idi. Qeyd etmək lazımdır ki, onlar öz seçimlərində əsla yanılmamışdılar.

ADU rəhbərlərinin vaxtilə sayıb-seçdiyi kadrlardan biri də Abuzər Xələfov olmuşdur. Öz insani keyfiyyətlərinə görə ali pillədə duran millət övladlarından birinin — Abuzər müəllimin onu yaxından tanıyanlar arasında xüsusi çəkisi, mövqeyi və hörməti vardır. Abuzər müəllim ağayana kişidir, ağayana kişiləri isə həyatın heç bir rüzgarı əyə bilməz. Odur ki, o, həyatda, o cümlədən öz işində daim mətin və dönməzdir, halal süd əmmişlərdəndir. Onun əli də, əməlləri də təmizdir. Belə insanlar həyatda öz ömrünü sakit yaşayır, heç nədən çəkinib-qorxmur, sözü yerində, ədalətsizliyi üzə deməyi bacarır. Abuzər müəllimin daxili dünyası safdır: xəbislik, xəyanətkarlıq, çirkinlik onun təbiətinə yaddır.

Bütün uzunömürlülərin varlığı xeyirxahlıqdan yoğrulduğundan Allah-taala onları cəmiyyət üzvlərinə örnək kimi yaşadıb saxlayır.

Abuzər müəllimin xeyirxahlığı, düzgünlüyü onun bütün əməllərinə, canına, qanına hopmuş, iliyinə işləmişdir. Buna görə də ömrünü həsr etdiyi BDU-da daim ədalətin keşiyində dayanmış, düzlərə arxa olmuş, əyrilərə qarşı düşmən mövqe tutmuşdur.

Bakı Dövlət Universitetini təşkil edən (1919) yüksək mədəniyyətə malik professorlar ən ali və saf ənənələri, davranış mədəniyyətini sonrakı nəsillərə ötürmüş, onlar da öz növbəsində həmin ənələləri saflaşdırmış, durultmuş, son həddə BDU-nun indiki professor və müəllim heyətinə vermişlər.

Professor Abuzər Xələfov və onun kimi şəxsiyyətlər universitetin indiki mərhələsində müsbət mənada həlledici rol oynamaqdadırlar.

Abuzər müəllim yaxşı müəllim, tərbiyəçi olmaqla yanaşı, həm də gözəl təşkilatçıdır. Professoru tanıyanlar, onunla birgə işləyənlər bilirlər ki, biblioqrafiya fakültəsinin yaranması və inkişafında Abuzər müəllimin nə dərəcədə böyük xidmətləri olmuşdur.

Bir faktı yada salmaq istəyirəm. Mən İrəvan Pedaqoji Məktəbində (1945-1947) oxuyarkən filoloq olmaq arzusundaydım. Bu həvəslə də 1947-ci ildə BDU-nun filologiya fakültəsinə daxil olmaq üçün ərizə verdim. İmtahanlardan sonra öz soyadımı elə həmin ildə təşkil edilmiş biblioqrafiya bölməsinə qəbul olunmuşlar siyahısında gördüm.

Biblioqrafiyanın lüğəti mənası mənə izah edildikdən sonra universitetin rektoru, mərhum bioloq, akademik Abdulla Qarayevin qəbuluna getdim. O dedi ki, səni biblioqrafiya bölməsindən filologiyaya dəyişən deyiləm. Apardığım ərizəmi rektora təqdim etdim və onun dərkənarından sonra sənədlərimi geri aldım. Bir sözlə, beş il universitetdə oxuduqdan sonra kitabxanaçı olmaq istəmədim. Sonralar söhbətlərimizdə Abuzər müəllimə dedim ki, əgər mən biblioqrafiyanın mahiyyətini indiki kimi bilsəydim, sənədlərimi geri almazdım. Abuzər müəllim ona xas olan incə yumorla mənə dedi:

— Yaxşı ki o dövrdə sənədlərini geri götürübsən, yoxsa indi mənafelərimiz toqquşardı.

Bu, Abuzərin növbəti zarafatıydı. Abuzər müəllim dost seçimində ciddi olduğu üçün seçdiyi dostlara sədaqətlidir. Onun dostları tək-təkdir.

Doğrudur, gənclik illərində hər birimizin dost adlandırdığımız şəxslər çox olub. Lakin zaman dostlar arasında öz seçimini apararaq indiki yaşda dostların "ya bir olar, ya iki" kəmiyyət göstəricisinə gətirib çıxarmışdır. Odur ki, biz yaşlıların dost baxımından kəmiyyət göstəricisi kəskin azalmış, yalnız mənəvi dünyası yüksək olan dostlar bir-birinə sadiq qalmışlar. Atalar deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Həyat bizə dost seçməkdə öz təbii dərsini vermişdir.

Allah-taala dünyaya gələn anlarımızdan gələcəkdə yaşayacağımız illəri işıqlandıran çırağı yanacaqla təmin etmişdir. Bu ömür çırağı hər birimizin həyatında tədricən gur yanmağa başlayır. Çırağın işığı ömrün yarısında öz kulminasiyasına çatır. Alın yazısına müvafiq olaraq ömrün məhz bu çağından etibarən çırağın dabanı tədricən çəkilməyə, ilbəil sönməyə doğru gedir.

Biz yaşlıların da hər birinin həyat çırağı ürəyindədir. İlahiyə çox şükür, imkan verib ki, Makedoniyalı İsgəndər kimilərdən fərqli olaraq həyatda üç dəfədən də artıq yaşayaq. Abuzər müəllim kimi şəxslər həyatın qədrini bildiyi və onu qiymətləndirdiyi üçün ailəsinə, çalışdığı müəssisəyə, millətinə ən ali dərəcədə məqsədyönlü xidmət göstərir, öz elmi, elmi-pedaqoji və təşkilati yaradıcılıq fəaliyyətini yüksək səviyyədə davam etdirir.

Abuzər müəllim BDU-nun aparıcı professorlarından, sayılıb-seçilən ağsaqqallarından biridir. O, indi də universitetin saf ənənəsini qoruyub saxlamaqda fəal iştirak edir, rektorluğun işinə yaxından köməklik göstərir, yaranmış münaqişəli vəziy-yətlərdə, həmişə olduğu kimi, obyektiv mövqe tutur, tələbələrin təhsilinin yüksəlməsində, yaradıcı əməyinin artmasında onlara yaxından yardımçı olur.

Abuzər Xələfov son 40 il ərzində BDU-nun ən ümidli pedaqoq — alim sütunlarından biri olaraq qalır. Daxili dünyasına sədaqəti, insani keyfiyyətlərinin sabitliyi ona uzun illər universitetdəki nüfuzunu qoruyub saxlamağa imkan vermişdir. Belə bir xoşbəxtlik hər kəsə nəsib olmur.

Professor Abuzər Xələfovun əməlləri saf olduğundan Allah-taala ona Həcc ziyarətini qismət etmişdir. 1998-ci ildə biz bir qrup Azərbaycan ziyalısı — Zahid Qaralov, Abuzər Xələfov, Məsud Qasımov və b. Həcc ziyarətinə başladığımız ilk günlərdən daim bir yerdə olmuşuq.

Məkkə ziyarəti zamanı mən Abuzərdə daim yüksək daxili mədəniyyətin — hörmət, ehtiram və ali insani keyfiyyətlərin təbii yolla özünü büruzə verdiyinin şahidi olmuş, Müqəddəs səfər günlərində onun yoldaşlığına heyran qalmışam.

Abuzər müəllimə yaşadığı həyat halal olsun, Allah-taala Hacı Abuzəri millətimizə çox görməsin!

Abuzər haqqında bu sətirləri yazanda onun adının mənasına diqqət yetirdim. Əgər səhv etmirəmsə, onun adı iki hissədən — Ab və Zərdən ibarətdir. Abuzər — qızıl suyu deməkdir. Müdrik ata-babaların verdiyi ad — Qızılsu nə qədər də yerinə düşüb. Doğrudan da Abuzər həyatda millətin qızıl kimi bir oğluna çevrilmişdir.

Abuzər müəllim, Sizin soyadınızın Xələfov olması da bir xoşbəxtlikdir. Xələfovlar insanlığın bir qütbündə, Naxələfovlar isə onun digər bir qütbündə dayanıb. Odur ki, Allah-taala Xələfovları Naxələfovlara qarşı qoymuş, onlara qarşı yorulmadan mübarizə aparmaq üçün yaratmışdır.

Millətin əsl oğulları həyatı boyu ona şərəflə xidmət ediblər. Möhtərəm professor Abuzər Xələfov, Siz də daim millətimizin daxili dünyasının saflaşmasına xidmət etmişsiniz.

Bütün orta və ali məktəblər Vətənimizin saf sulu bulaqlarıdır.

Yarım əsrə yaxındır ki, Siz bu gənc kadrlar bulağının gözünün saf qalması, savadlı ali təhsilli kadrların yetişdirilməsi, onların vətənpərvərlik ruhunda tərbiyə olunması uğrunda çalışırsınız.

Bu Sizə İlahi bəxşeyişdir...

«Elm», № 39-40, 29 noyabr 2000